# Avropa Oyunları tarixə Azərbaycan modeli möhürünü vuracaq

**Son illər ərzində Azərbaycan dünyaya özünü dinamik inkişaf edən, müasir, güclü ölkə kimi təqdim edə bilib. Müstəqil dövlət kimi cəmi 24 ildir ki, yaşayan Azərbaycan dünyada çox etibarlı tərəfdaş və dost kimi tanınır. Bu gün tarixi bir hadisənin əsası qoyulur.**

Müasir Azərbaycan idman dövlətidir, bu sahədə bizim böyük uğurlarımız və nailiyyətlərimiz mövcuddur. Təsadüfi deyil ki, Avropa Oyunları Azərbaycanda artıq ümumxalq məsələsinə çevrilib. Qədim "Atəşgah" məbədindən alovlandırılan məşəl bütün ölkəni dolaşaraq Bakıya qayıdıb. İdman məşəlinin ölkəmizin bütün bölgələrini dolaşması fərəhimizi qat-qat artırır! Bu müasir Azərbaycanın siyasi, iqtisadi, sosial və mədəni inkişafının göstəricisi, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği deməkdir.

Bu məşəl həm də Azərbaycanın yüksəlişinin, inkişafının carçısıdır. Ölkəmizin dünyada artan nüfuzu, iqtisadi inkişafı, həyata keçirdiyi beynəlxalq əhəmiyyətli layihələr, reallaşdırdığı infrasturuktur Azərbaycanın ucalığının ayrı-ayrı nümunələridir.

Bu kimi beynəlxalq tədbirlərin keçirilməsi ölkənin tanıdılması baxımından olduqca vacib amillərdəndir. Məsələ, əlbəttə, bununla da bitmir. Unutmayaq ki, Oyunlarla bağlı ölkəmizə turist axını daha da güclənəcək. Demək, bu tədbirin keçirilməsinin mahiyyəti həmçinin ölkəmizin turizm sektorunun inkişaf etdirilməsi deməkdir. Tədbirlər, həmçinin ölkəmizin mədəniyyəti, tolerantlığı, mətbəxi, qonaqpərvərlik ənənələrimizin təbliğ olunması baxımından da az əhəmiyyət daşımır. Bir sözlə, Azərbaycan dünyada parlayan bir turizm məkanı təsiri də bağışlayır.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti də I Avropa Oyunlarına həsr edilmiş müxtəlif tədbirlər, o cümlədən rəsm sərgiləri, konsert proqramları keçirib. Universitetin Rəssamlıq fakültəsinin tələbələrinin əl işlərindən ibarət təşkil edilən sərgi ilk Avropa Oyunlarına həsr olunmuşdur. Bu sərgi ölkənin bir sıra ali təhsil müəssisələrində nümayiş etdirilmiş və uğur qazanmışdır.

Eyni zamanda tələbələrimiz könüllülərin sıralarında olmaqla, bu mötəbər idman tədbirinin keçirilməsində yaxından iştirak edəcəklər. Ona görə də bu nüfuzlu beynəlxalq idman tədbirinə böyük ruh yüksəkliyi ilə hazırlaşırlar. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin sırasına əlavə edilən möhtəşəm "Bakı-2015" I Avropa Oyunları nəinki qitənin, hətta dünyanın diqqətini cəlb etməkdədir. Bunun bir sıra səbəbləri var. Əvvəla, idmana, sadəcə, sağlamlıq kimi baxmaq doğru deyil, o, həm də mədəniyyət və incəsənət hadisəsidir. Burada fiziki və mənəvi güc sintezləşir. Demək, ölkəmizdə keçiriləcək ilk Avropa Oyunları həm də bizim bütövlükdə mədəniyyətimizin təsdiqi və təbliği üçün yaradılmış meydandır. Mədəniyyət və incəsənətimizin idmanla sintezinin nümayişi üçün, doğrudan da, münbit şərait yaradılıb. Buna dövlətimizin mədəniyyət siyasətinin uğurla aparılması kimi baxmaq lazımdır.

İlk Avropa Oyunlarının ölkəmizdə keçirilməsi göstərir ki, Azərbaycan güclü dövlətdir. Bu Oyunlar Azərbaycanın sülh və demokratiya ölkəsi olduğunun əyani nümayişidir. Prezident İlham Əliyev çıxışlarının birində qeyd etmişdir ki, bu, Avropa Olimpiya Komitəsinin müsəlman əhaliyə malik Azərbaycanda keçirilməsi ilə bağlı son illər qəbul edilmiş ən müdrik qərarlardan biridir.

Oyunların Təşkilat Komitəsi Avropa Olimpiya Komitəsi ilə sıx əməkdaşlıq şəraitində iki il yarımdır ki, böyük idman tədbirini yüksək səviyyədə hazırlamaq üçün səylərini əsirgəməmişdir. Mövcud olan idman obyektləri müasir standartlara uyğun şəkildə yenidən qurulmuş, nəticə etibarı ilə ölkədə tamamilə müasir idman infrastrukturu yaradılmışdır. Onların arasında ən vacibi, əlbəttə, 68 min nəfərlik tamaşaçı tutumu olan Bakı Olimpiya Stadionudur ki, ilk baxışdan görünüşü ilə də xoş təəssürat yaradır, göz oxşayır, paytaxtımızın müasirliyinə yeni bir çalar qatır.

Oyunların Bakıda keçirilməsinin digər mühüm səbəbi isə respublikamızın regionda lokomotiv dövlət rolunda çıxış etməsi, həmçinin Avropanın əsas enerji təchizatçılarından birinə çevrilməsidir. Son vaxtlar Azərbaycan iqtisadiyyatı və elmi-mədəni potensialı elə səviyyəyə çatıb ki, indi sadəcə, Şərqlə Qərb sivilizasiyaları arasında körpü rolunu oynamır. Ölkəmiz bu sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla, multikulturalizm məkanına çevrilib. Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlər ən yüksək səviyyədə təmin edilib. Milli, etnik, dini müxtəliflik bizim böyük sərvətimiz və güc mənbəyimizdir. Bu baxımdan bizdəki zəngin mədəniyyət digər xalqlar üçün olduqca maraqlıdır. I Avropa Oyunları zamanı biz həm də zəngin mədəniyyətimizin təbliğinə imkan əldə etmiş oluruq.

I Avropa Oyunlarına təsəvvüredilməz dərəcədə qısa bir müddətdə keçirilən hazırlıq ilk növbədə respublikanın iqtisadi gücünü və ölkə rəhbərinin yüksək təşkilatçılıq imkanlarını əks etdirir. Bu, məncə, cahanşümul idman bayramı olacaq. Bütün təşkilati işlərə böyük əmək sərf edən Avropa Oyunları üzrə Təşkilat Komitəsi möhtəşəm layihələr ərsəyə gətirib. Ölkəmizdə və xarici dövlətlərdə Avropa Oyunlarının təbliğinin düzgün və effektiv qurulması, məşəlin gəzdirilməsi, təqdimat mərasimlərinin keçirilməsi buna bir nümunədir. Bu qədər böyük həcmli işlərin qısa müddətdə görülməsi yüksək bacarıq və təşkilatçılıq qabiliyyətindən xəbər verir. Əminik ki, qüdrətli ölkəmiz Avropa Oyunlarını yüksək səviyyədə keçirərək bu məsuliyyətli sınaqdan üzüağ çıxaraq tarixə Azərbaycan modeli möhürünü vuracaq.



**Fərəh ƏLİYEVA,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor.**